**UOT 32**

**Şahin BAĞIROV**
AMEA Fəlsəfə İnstitutu, s.e.ü.f.d., dosent

# SOSİAL QAYDA-QANUNLARA NƏZARƏT MEXANİZMİ: SİYASİ ELİTA VƏ SİYASİ ETİKA*

Sıravi vətəndaşların həyatında dövlət aparatının gücünün artması bir tərəfdən sosial həyatla əlaqədar qəbul edilən qərarların riskliliyini artırmış, digər tərəfdən sosial qayda-qanunlara nəzarət edənlərə nəzarət olunması problemini kəskinləşdirmişdir. Hər bir vətəndaşın varlığının əmin-amanlığı və rifahı siyasi sistemin fəaliyyətindən olduqca çox asılıdır. Vaxt keçdikcə bu asılılıq daha da güclənir, cəmiyyətdən təcrid olunur, öz inkişafında qapalılaşır, əsas diqqəti ümumi sosial marağa xidmət edilməsinə deyil, təkrar istehsalına və özünümühafizə edilməsinə yönəlir. Bütün bunlar isə elit və etik obyekt kimi siyasətə olan diqqətin artmasına stimul verir.

Məhz siyasətdə mənəviyyat problemi və onun nəzəri cəhətdən dərk olunması cəhdləri ön plana çıxmışdır. Bununla əlaqədar müasir tətbiqi etikanın problemli sferalarından biri kimi siyasi etika göstərilə bilər. Müasir siyasət öz növbəsində etik nəzəriyyənin praktiki potensialının aktuallaşdırılması məkanına çevrilmişdir. Özünün mövcud olmasının lap başlanğıcından siyasətdə ictimai münasibətlərin tənzimlənməsi kimi hakimiyyət dominant rolu oynamışdır. Bu çatışmazlıq nəinki aradan qaldırılmış, ictimai həyatın sosial mədəni inkişafı prosesinin dərinləşməsi ilə daha da güclənmişdir.

Hələ e.ə. Aristotel "Böyük Etika" əsərində yazırdı: "Etika məsələləri barəsində danışmaq qərarına gələrək biz, hər şeydən öncə, müəyyənləşdirməliyik ki, əxlaq nəyin bir hissəsidir. Qısaca demiş olsaq əxlaq, görünür ki, siyasətin tərkib hissəsidir... Beləliklə, görünür ki, etika siyasətə onun bir hissəsi və başlanğıcı kimi daxildir. Ümumiyyətlə, bu fənn haqq naminə etika deyil, siyasət adlanmalıdır" (1,s.311).

Sosial həyat fəaliyyətinin formatının müəyyənləşdirilməsi məsələsində geniş kütlələr dövlət himayəsindən xilas olmaqda maraqlıdırlar. Onlar öz müqəddəratlarını həll etmək üçün daha çox hüquqlar əldə etmək istəyirlər. Odur ki, müvafiq olaraq bir sıra nəzəri suallara cavab verilməsi aktuallaşır: ümumi əhəmiyyət kəsb edən qərarların qəbul edilməsində qiymətləndirmə kriteriyaları nə ola bilər ? Siyasətçilər tərəfindən bu və ya digər qanunlar, sosial tənzimləyicilər, həyati əhəmiyyət kəsb edən standartlar hansı əsaslara görə qəbul edilir? Bu gün siyasi tənzimləmədə tənzimləyici rolunu mənəviyyat, əxlaqi prinsiplər oynaya bilərlərmi? Bu və ya digər suallara məhz siyasi etika cavab axtarmalıdır. Təbii ki, burada siyasi elitanın rolu obyekt olaraq tədqiq olunmalıdır.

Aristotelə görə birinci olaraq ona diqqət yetirmək lazımdır ki, hər bir elmdə (epistemes) və qabiliyyətdə (dinameos) bir məqsəd var və bu məqsəd həmişə nə isə bir yaxşı şeydir: heç bir elm, heç bir qabiliyyət pis işdən ötrü deyil. Və əgər yaxşı şey – bütün qabiliyyətlərin məqsədidirsə, onda aydındır ki, ən böyük qabiliyyətin məqsədi ən zəruri şeydir. Ən böyük qabiliyyət isə, şübhəsiz, siyasi bacarıqdır, belə ki, məhz siyasətin məqsədi ən zəruri şey olacaq. Deməli, bizə yaxşı şey haqqında danışmaq lazım olacaq, həm də ümumiyyətlə, yaxşı şey haqqında deyil, bizə aid olan yaxşı şey haqqında - axı biz burada Allahlara aid olan yaxşı şey haqqında danışmamalıyıq, ona görə ki, bu, başqa təlimdir və onu başqa cür araşdırmaq lazımdır. Beləliklə, bizim işimiz ictimai, siyasi həyatda olan yaxşı şeylər haqqında danışmaqdır (1,s.312-313).

---

* Məqalə s.e. ü.e.d., Adil Mirabdullayev tərəfindən çapa məsləhət görülüb.

Həqiqətən də müasir tətbiqi etikanın mühüm və əhəmiyyətli hissəsi kimi siyasi eti¬ka qeyd olunmalıdır. Siyasi etika yeni və gənc elmi araşdırma sahəsi, tədris fənni¬dir. La¬kin siyasi nəzəriyyənin, siyasi fəlsəfənin xüsusi problemi kimi qədim ənənələri vardır. Sözügedən ənənələr etiklər, sosioloqlar, sosial filosoflar, politoloqlar tərəfindən inkişaf etdirilmişdir. Siyasi etikanın yaranması sərhədlərini başa düşmək üçün insanın fərdi həyatını ayırmaq kifayətdirmi? Əlbəttə, yox. Fərdi həyatın daha geniş izahını vermək lazımdır. Bunun üçün biz mülki cəmiyyət haqqında anlayışları şərh etməliyik. Hegelə görə bu, "aralıqda", yəni ailə və dövlət arasında baş verir. Düzdür, burada filosof qeyd edir ki, cəmiyyətin inkişafı dövlətin inkişafından sonra baş verir. Nəsildən, icmadan, birlikdən fərqli olaraq belə cəmiyyət yeni dövrün, burjuaziyanın inkişafının məhsuludur, insanların müstəqil istehsalçı və istehlakçı kimi fərdi, mülki münasibətlər mühitini yaradır. A.Qramşi kimi mülki cəmiyyətini ilk növbədə siyasi münasibətlərdən uzaq bir sahə kimi izah edən tədqiqatçılar, yəqin ki, haqlıdırlar. Belə cəmiyyətdə insanların əxlaqını mülki münasibətlər, təbii hüquqlar tənzimləyir. Mülki cəmiyyətinin etikası münasibətləri elə tənzimləyir ki, burada fərd vətəndaş kimi özünü göstərir, müstəqil hərəkət edir, öz həyat strategiyasını kənardan təzyiq olmadan müstəqil müəyyənləşdirir. Burada onu da qeyd etmək lazımdır ki, bu sahə Qərb sivilizasiyasının müəyyən inkişaf səviyyəsində siyasi hakimiyyətin təsirindən kənarda qalmışdı, siyasi hakimiyyət təsərrüfat fəaliyyətinə təsir göstərə bilmirdi. Hegel vətəndaşlıq etikası imperativini belə bir formulaya salırdı: "Özün şəxsiyyət ol və başqa şəxslərə hörmətlə yanaş". Mülki cəmiyyətinin mənəviyyatı və etikası müəyyən şəraitdə siyasi mühiti, siyasi münasibətləri müəyyənləşdirməyə ehtiyac hiss edirlər. Artıq siyasi hakimiyyətin bu münasibətlərə qarışmaması, müstəqillik və nəzarətsizlik onları təmin etmir. Məhz bu zaman siyasi etika formalaşmağa başlayır. Bu da siyasi mühitin demokratikləşməsi və mülki cəmiyyət etikasının yüksək inkişaf mərhələsində baş verir (2,s.2).

Siyasi etika XX əsrin ortalarından sosial praktikanın müəyyən sorğu və tələbləri əsasında xüsusi elmi araşdırma sahəsi kimi formalaşmışdır. Qərbdə sosioloji, politoloji, sosial fəlsəfə sahəsində tədqiqatlar aparan bir sıra mütəxəssislər qeyd edilən istiqamətdə xeyli işlər görmüşlər. Xüsusilə R.Nozik, C.Roulz, Y.Habermas, Fuko, X.Arendt, B.Sutor, K.Q.Ballestrem, Z.Bauman və başqalarının adlarını çəkmək olar. Postsovet məkanında siyasi etika elmi və tədris fənni kimi A.Dubko, V.Bakştanovski, A.Prokofyev, A.Saqomonov, T.Mişatkino, Bkapustin V.Ma-Laxova, A.Ermolenko və b. tərəfindən tədqiq olunmuşdur (5,s.3).

İndiki dövrdə siyasi etikanın müstəqil elm sahəsi kimi predmeti və problem müstəvisinin müəyyənləşdirilməsi ilə əlaqədar çətinliklər mövcuddur. Bundan əlavə siyasi etikanın problemləri sırasında siyasi elita barədə də siyasi fəlsəfədə, politologiyada, tətbiqi etikada çox sayda şərhlər verilmişdir. Bununla belə, siyasi elita sferasında siyasi etika yaxud siyasi etikada siyasi elita problemi araşdırılmalıdır. Hər iki aspektdən yanaşdıqda söz yenə də elitistlərə verilir. Elitistlər bütün dəyərləndirmələri ümumiləşdirərək „elita"ya iki münasibətin formalaşdığı qənaətinə gəlirlər. Aksioloji (dəyərli) yanaşma (yəni „ən yaxşı") anlayışı „elita" termininin orijinal mənasına əsaslanır. Burada elitaya daxil olan fiziki üzvlər cəmiyyətin verilmiş digər ortalamaları ilə müqayisədə daha yüksək keyfiyyətə, istedada, bacarığa, səlahiyyətlərə malikdirlər. Altimetrik yanaşmada elitaya daxil olan fiziki şəxslər real güc və təsirə malik olmalıdırlar. Onların mənəvi və əxlaqi keyfiyyətləri, intellektual səviyyələri ciddi qiymətləndirilmir. Hazırda „elita" terminінə altimetrik yanaşma üstünlük təşkil edir, belə ki aksioloji yanaşmanı əsaslandıran etibarlı və özünü doğrulda bilən meyarlar hazırlanmayıb.

Elitanı formal və qeyri-formal formaya ayırmaq lazımdır. Formal elita müvafiq iyerarxiya strukturlarında və hakimiyyətdəki güc və təsirə əsaslanır. Qeyri-formal elitanın nümayəndələri rəsmi iyerarxiya strukturlarında təmsil olunmasalar da, cəmiyyətin müəyyən hissəsinin dünyagörüşünə əsaslı təsir göstərirlər. Məsələn, Ziya Bünyadov, Rəşid Behbudov, Müslüm Maqomayev vaxtilə Azərbaycan cəmiyyətinə şübhəsiz böyük təsir göstərsələr də, onların heç

birinin rəsmi mövqeyi yox idi. Baxmayaraq ki, bütün dövrlərdə belə şəxsiyyətlər olub, bu gün də cəmiyyətimizdə kifayət qədər nüfuzlu elitar şəxslər vardır. Odur ki, mövcud elita və kontrelitanı ayırmaq lazımdır. Potensial elitanın əsas məqsədi mövcud elitanı dəyişmək (və ya istiqamət vermək) və özlərini bu istiqamətdə namizəd göstərməkdir. Kontrelitanin nümayəndələri şəxsi etirazlarını isbat etmək üçün ya yeni təkliflər verirlər, ya da yeni bir model (stereotiplər) təklif edirlər. Eyni zamanda elita fəaliyyət sahəsinə görə ( siyasi elita, elmi elita, maliyyə elitası, hərbi elita ...), habelə müvafiq sahələrdəki fəaliyyətinə görə fərqlənir.

Formalaşma xarakterinə görə elitanı nomenklatura və situativ olaraq fərqləndirmək olar. Elitanın nomenklatura forması sülalələrin formalaşması prinsipinə oxşayır, mövcud elitanın prinsiplərinə sədaqət nümayişi təşkil edir. Bu prinsip müxtəlifliyin vacibliyi qanununa (Eşbi hüququ) ziddir. Bu şəraitdə ideya və həllər minimuma endirilir, lakin onların müəlliflərinin rəqabəti ön plana çəkilir. Belə halda elitanın uğursuzluğu cəmiyyətin həyat fəaliyyətinin itirilməsi riskini artırır. Daha məhsuldar situativ elitadır ki, cəmiyyətin kəskin vəziyyətlərində, yəni əvvəlki elita etibarlılığını itirdiyi anda inkişaf edir. Situativ elita bu fonda cəmiyyətə faydasını, təklif etdiyi ideya və həllərin aktuallığında özünü sübut edir. Tarixən situativ elita degenerasiyaya uğrayaraq nəticədə nomenklatura elitasına çevrilir. Situativ elitanı daha çox orta təbəqə hazırlayır. Hətta əlverişsiz şəraitdə də orta təbəqəyə aid edilə biləcək sosial təbəqələr mövcuddur. Rəsmi statistikaya görə ölkədə 16% yoxsul varsa, az sayda varlıları çıxmaq şərtilə yerdə qalanlar orta təbəqəyə aiddirlər (4,s.129-130). Açıq demokratiya situativ elitanın daimi formalaşması, fikir və həllərinin yeniləşdirilməsi üçün şərait yaradır, bunun həyata keçirilməsi üçün (informasiya və maliyyə vəsaitlərinin axını üçün yüksək istehsal infrastrukturu şəklində) yalnız XX əsrdə əlverişli mühit yaranmışdır.

Hər hansı bir cəmiyyətin mühüm vəzifəsi yüksək keyfiyyətli elitanın mövcudluğunu təmin etmək, eləcə davamlı olaraq yüksək keyfiyyətli elitanın hazırlanmasına nail olmaqdır (3,s.81). Elitanın keyfiyyəti yerinə yetirdiyi funksiyaların mürəkkəbliyi ilə elitanın bunu hansı dərəcədə yerinə yetirdiyi arasındakı nisbətdir, məhz bu nisbət elitanın göstəricisidir. Praktikada elita tez-tez deqradasiyaya meyil edir ki, bu da özünün göstəricilərini qeyri-real artırır, cəmiyyətin qarşısındakı öhdəliklərin icrasını ləngidir (3,s.124). Siyasi elita cəmiyyətdəki azlıqların sosial komponent kimi daxili birliyini təmin edən, siyasətdə mühüm strateji qərarlar qəbul edən və lazımi resurs potensialına malik olan subyekt kimi çıxış edir. Onu qurğuların, stereotiplərin və davranış normalarının (adətən nisbi) birgə dəyərlər birliyi, eləcə də hökumətə cəlb olunma yaxınlığı (alış şərtləri və metodundan asılı olmayaraq) ilə xarakterizə edilir. Bir qayda olaraq, siyasi elitanın istifadə etdiyi resurslar müxtəlifdir və siyasi xarakterli olması mütləq deyil. Siyasi elitanın resurslarını xarakterizə edərkən Burdenin çoxölçülü səmərəli sosial sahə konsepsiyasından istifadə etmək effektiv olardı. Siyasi elitanın hakimiyyətinin legitimliyinin ən mühüm səciyyəvi cəhəti qəbul olunmuş qərarların və mexanizmlərin birbaşa kütləvi şüur və davranış səviyyəsində yayımıdır.

**Açar sözlər:** *cəmiyyət, siyasi proses, elita, hakimiyyət, elitizm, siyasi etika, demokratiya.*

## İstifadə olunmuş ədəbiyyat:

1.Aristotel. Böyük Etika. “XXI-YNE”, Bakı, 2006.

2. Məmmədzadə İ.R. Siyasi Etika (1997) Siyasi Biliklərin Əsasları "İNAM" Plüralizm Mərkəzi, Layihənin Rəhbəri: Vahid Pərviz. Elmi Red: Rasim Musabəyov.

3. Нарта М. Теория элит и политика. М.: Прогресс, 1978.

4. Плосконосова В.П. Правящая элита и общество: концептуальные основы анализа / Сиб. гос. автомоб.-дор. акад. (СИБАДИ). Омск, 2001.

5. Kleo.ru /webboard/politics/ Forum >Архив «О политике».Элита и мораль.

**Шахин БАГИРОВ**

## МЕХАНИЗМ КОНТРОЛЯ НАД СОЦИАЛЬНЫМИ ПРАВИЛАМИ: ПОЛИТИЧЕСКАЯ ЭЛИТА И ПОЛИТИЧЕСКАЯ ЭТИКА

**Резюме**

В вопросе определения формата социальной деятельности широкие массы заинтересованы в уходе из-под опеки государства. Для решения своих проблем они стремяться к достижению больших прав. По этому становяться актуальными ответы на ряд теоретический вопросов. С этой точки зрения на передний план выходят проблемы политической нравственности и ее теоретического осмысления.

В связи с этим в статье анализируеться роль политической этики как проблема одной из сфер современной прикладной этики. Отмечаеться, что современная политика, в свою очередь, превратилась в сферу практического потенциала актуализации этической теории. В статье также анализируеться доминантная роль власти как регулятора социальных отнешений в политике.

**Ключевые слова:** *общество, политический процесс, элита, власть, элитизм, политическая этика, демократия.*

**Shain BAGIROV**

## CONTROL MECHANISM TO SOCIAL RULES: POLITICAL ELITE AND POLITICAL ETHICS

**Summary**

The article examines the role of political elite and political ethics in the mechanism of controlling socio-political norms. The problem of morality in politics and its theoretical understanding are focused on. The author believes that the participation of the masses in the determination of the form of social life is necessary. The essence of political ethics and political elite is thoroughly analyzed.

**Keywords:** *society, political processes, elite, government, elitism, political etica, democracy.*